# Tibb işçiləri günü qeyd edildi

17 iyun—Tibb İşçiləri Günü qeyd olundu. Bu münasibətlə rayonun tibb işçiləri şə-





hərin mərkəzi parkına toplaşmışdılar. Toplantıda rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov iştirak edirdi.

Kollektivin üzvləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılmış abidəsi önünə tər qızıl gül dəstələri qoymuş və dahi şəxsiyyətin əziz xatirəsini yad etmişlər.

* * *

Elə həmin gün rayonun Topbağ kəndində yeni tikilmiş tibb məntəqəsinin açılış mərasimi keçirilmişdir. Mərasimdə



rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov iştirak və çıxış etmişdir.

Tədbirdə rayon mərkəzi xəstəxanasının baş həkimi Sabir Bayramov və kənd sakini Ağabəy Ağayev çıxış etmişlər.

* * *

Tibb işçilərinin təntənəli bayram tədbiri Qafqaz Sport hoteldə davam etmişdir.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Milli səhiyyə sistemimiz inkişaf edir

***«Tibbin insan cəmiyyəti ilə yaşıd olan bir tarixi var və siz də bütün fəaliyyətinizi bu sahə ilə bağlayaraq həyatınızı olduqca qədim, nəcib və xeyirxah bir işə—insanların sağlamlığının qorunması işinə həsr etmisiniz. Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir... Mən həkimləri çox sevirəm».***

**Heydər Əliyev.**

Hər il iyun ayının 17-də ölkəmizdə tibb işçilərinin peşə bayramı qeyd olunur. 2001-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə təsis edilmiş bu günün tarixə düşməsi təsadüfi deyil. 95 il bundan əvvəl may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti təşkil edildikdən sonra onun ilk qərarlarından biri Səhiyyə Nazirliyinin yaradılması ilə əlaqədar olmuşdur. Həmin qərar 1918-ci il iyunun 17-də imzalanmışdı. İkinci dəfə müstəqillik qazandıqdan sonra milli səhiyyəmizin təməl daşının qoyulduğu günün tibb işçilərinin peşə bayramı kimi qeyd edilməsi isə ümummilli liderin tariximizə olan həssas münasibətlərinin bariz nümunəsi kimi qiymətləndirilməlidir. Hazırda Azərbaycan səhiyyəsinin dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə dövlət səviyyəsində bütün zəruri tədbirlər görülür.

2003-cü ildən bəri səhiyyə sisteminin inkişaf etdirilməsində çox mühüm işlər görülmüşdür. Səhiyyə sisteminin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturunun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. Cənab Prezident İlham Əliyev respublika həyatının digər sahələri kimi, insanların sağlamlığında mühüm rol oynayan səhiyyə ocaqlarının da inkişafına, bu sahədə mövcud problemlərin tez bir zamanda aradan qaldırılmasına xüsusi əhəmiyyət verir. Azərbaycan Prezidenti cənab İlham Əliyev çıxışlarında dəfələrlə vurğulamışdır ki, «biz artan iqtisadi imkanlarımızı ilk növbədə sosial sahələrin inkişafına, o cümlədən səhiyyənin problemlərinin həllinə yönəltməliyik».

Hazırda Səhiyyə Nazirliyi sistemində ümumi çarpayı fondu, stasionar tipli tibb müəssisələrinin, ambulator poliklinikaların sayı xeyli artmışdır. Bu müəssisələrdə minlərlə həkim və orta tibb işçisi çalışır.

Respublika Prezidentinin təşəbbüsü ilə son illərdə səhiyyə nazirliyi tərəfindən ən vacib sahələr üzrə—«Qanın, qan komponentlərinin donorluğu və qan xidmətlərinin inkişafına dair Dövlət Proqramı», «Xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı», «Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı», «Onkoloji xəstələrin həyati vacib şiş əleyhinə preparatlarla təminatı üzrə Tədbirlər Proqramı» həyata keçirilir. Bütün bu proqramlar insanların sağlamlığına etibarlı təminat yaradır. Son illər ölkəmizdə, o cümlədən Qəbələdə də səhiyyə müəssisələrinin inşası, əsaslı təmiri və yenidənqurulmasında çox böyük işlər görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na əsasən ARDNŞ-nin maliyyə vəsaiti hesabına rayonumuzda beynəlxalq standartlara cavab verən müalicə-diaqnostika mərkəzi tikilib əhalinin istifadəsinə verilmişdir.

Dövlət başçısının bu müalicə-diaqnostika mərkəzinin açılışında şəxsən iştirak etməsi onun səhiyyə sisteminə yüksək qayğısının əyani təzahürü kimi diqqəti çəkir. Bu diaqnostika mərkəzində ən unikal cərrahi əməliyyatların aparılması üçün xarici şirkətlərin istehsalı olan qabaqcıl tibbi avadanlıqlar quraşdırılmışdır.

Mərkəzi xəstəxanada aparılan yenidənqurma işləri də alqışlanmalıdı. Burada insanlara yaxşı tibbi xidmət göstərmək üçün ən müasir tibbi avadanlıqlar quraşdırılmışdır. Bir sözlə, bu xəstəxana ən yüksək müasir standartlara cavab verir. Bundan əlavə Prezidentin qayğısı sahəsində mərkəzi xəstəxana bir neçə ədəd "Mercedes" markalı təcili yardım avtomobili alaraq istifadəyə vermişdir. Tibbi kadrların hazırlanması, onların işlə təmin olunması, səhiyyə işçilərinin sosial müdafiəsinin gücləndirilməsi dövlətin daim diqqət mərkəzindədir. Ümumilikdə, Prezidentin rəhbərliyi altında aparılan uğurlu siyasətin nəticəsidir ki, milli səhiyyə sistemimiz sürətlə müasirləşir.

Əziz tibb işçiləri! Peşə bayramınız mübarək!

**Aslan CƏLİLOV.**

# İCOC (Şərq xalçaları üzrə konfrans) Akademik Komitəsinin nümayəndə heyəti Qəbələyə gəlmişdir



ABŞ-ın Şərq Xalçası Cəmiyyətinin üzvü mərhum Qrover Şiltsin həyat yoldaşı xanım Beverli Şilts, həmçinin ABŞ, Almaniya və İtaliyanı təmsil edən 15 nəfərlik nümayəndə heyəti – İtalyadan İCOC (Şərq Xalçaları üzrə Konfrans) Akademik Komitəsinin sədri Alberto Boralevi, İCOC-un üzvləri Stefano İonesko və Mişel Buddeberq, "CARPET XL" jurnalının redaktoru Tim Steynert, o cümlədən xalça kolleksiyaçıları Cüzeppe Morcşini və Koos de Conq Azərbaycana səfərləri çərçivəsində Qəbələ rayonuna gəlmişlər.

Qonaqlar Vəndam qəsəbəsindəki xalçaçılıq müəssisəsində yerli xalça ustalarının hazırladıqları ən gözəl tətbiqi sənət nümunələri ilə tanış olmuş, onların texnoloji peşəkarlıqları ilə maraqlanmışlar.

Daha sonra nümayəndə heyəti "ASPİ AQRO" MMC-nin Qaradeyin kəndindəki şərab zavoduna gəlmiş, ən müasir texnologiyaya malik bu sənaye obyektində rəqabət qabiliyyətli şərab məmulatlarının istehsalını seyr etmişlər.

Günün ikinci yarısında qonaqlar Şəki şəhərinə yola salınmışlar.

**Foto S. Umuyevindir.**